**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Xəzər Universiteti**

**Ləman Verdiyeva**



# Cəzaçəkmə müəssisələrində yenidəntərbiyə (İSLAH) işinin sosial və psixoloji əsasları

**Bakı 2017**

# Cəzaçəkmə müəssisələrində yenidəntərbiyə (İSLAH) işinin sosial və psixoloji əsasları

**(metodik vəsait)**

**Xəzər Universitetinin**
**“Psixologiya”departamentinin**
**20 dekabr 2016-cı il tarixli, 10 saylı**
**və**
**Humanitar və Sosial elmlər fakultəsinin**
**13 mart 2017-ci il tarixli, 08 saylı**
**protokollarına əsasən nəşr hüququ**
**(qrif) verilmişdir.**

lmi redaktor: Cabir Xəlilov
hüquq üzrə fəlsəfə doktoru

Rəyçilər: Südabə Hüseynova
psixologiya üzrə fəlsəfə doktoru
Allahverdi Teymurov
hüquq üzrə fəlsəfə doktoru
Yaşar Şəkiyev
ƏN PX-nın psixoloqlar qrupunun rəhbəri
ədliyyə mayoru

**Bakı 2017**

**Verdiyeva  Ləman Əşrəf qızı** (psixologiya üzrə fəlsəfə dokroru),
“Məhkəmə psixologiyası” fənnindən bakalavr  pilləsinin tələbələrinin
istifadəsi üçün,  Xəzər Universiteti Nəşriyyatı,  Bakı  2017,     .40..səh.

@  L.Ə.Verdiyeva , 2017

# Ön söz

Ədalət mühakiməsi yalnız təqsirləndirilən şəxslərin tapılması və onlara qarşı cəza tədbirlərinin müəyyən edilməsi ilə məhdudlaşmır. Ədliyyənin qarşısında duran əsas məqsədlərdən biri də cinayət törətmiş şəxslərin islah olunmasıdır. Məhkəmə psixologiyası ilk növbədə belə bir mövqedən çıxış edir ki, hər hansı bir şəxsiyyət yenidən tərbiyə oluna bilər. Bu müddəa ən qatı mənfi keyfiyyətlərə malik olan şəxslərə də aiddir. Hətta belə şəxsləri də yenidən tərbiyə etmək, onlarda olan mənfi xüsysiyyətləri aradan qaldırmaq və onlara zəruri müsbət keyfiyyətləri aşılamaq mümkundur. Yenidəntərbiyənin psixoloji əsaslarını işləyib hazırlayarkən məhkəmə psixologiyası həmin fəaliyyəti məhkumlarda xoşagəlməz mənfi xüsusiyyətlərin aradan qaldırılmasına və eyni zamanda müsbət cəhətlər, vərdiş və tələbatlar yaratmaqla, onlarda müsbət əxlaqi keyfiyyətlərin tərbiyə edilməsinə yönəltməlidir.

Cinayətkarlar mənfi psixi keyfiyyətlər və xüsusiyyətlərlə yanaşı, bəzən mənəvi davranış prinsiplərinə zidd olan meyllərin daşıyıcısı kimi çıxış edirlər. Buna görə də onların yenidən tərbiyəsinə yönəlmiş fəaliyyət elə qurulmalıdır ki, onlar öz hərəkətlərindəki ziddiyətləri görsünlər və onları həmin hərəkətlərə təhrik edən söhbətləri dərk edərək, özlərini əxlaqi pozğunluqda təqsirləndirə bilsinlər. Ən əsası cəmiyyətdə bir daha cinayət işləri ilə məşğul olmayacaqlarını təmin edə bilsinlər. Cinayətkarlığın yenidən tərbiyəsi üzrə aparılan tərbiyəvi-islah sistemində həyata keçirilən əmək terapiyası əmək fəaliyyətinin təşkili ilə bağlı pedaqoji tələblərin, həmçinin şəxsiyyətə psixoloji təsirin kollektiv formalarına riayət olunması təqdirdə effektiv nəticə əldə etmək mümkündür. Məhkumların tərbiyəvi-islah prosesi zamanı tərbiyəvi, tibbi və əməliyyat-rejim aparatlarının əməkdaşları ilk növbədə, əməyə, peşə əldə etməyə marağın artmasına diqqət yetirməli, onların ümumtəhsil və texniki-peşə təhsilinə cəlb olunmaları ilə bağlı qəti tədbirlər görülməlidir.

Məhkumların çoxu özlərinin asudə vaxtlarını düzgün bölüşdürmür və ondan səmərəli istifadə edə bilmirlər. Bu sahədə həmin məhkumlara kömək etməli, asudə vaxtlarını səmərəli keçirmələri üçün onlarda müəyyən tələbat, maraq və vərdişlər yaradılmalıdır. Bununla əlaqədar olaraq, məhkumların ümumtəhsil, estetik, mədəni səviyyələrini daim yüksəltmək tələb olunur. Hər bir məhkum cinayətin ağırlıq dərəcəsindən asılı olmadan ona olan insani münasibətə laqeyd qala bilmir və öz əməlini yenidən təhlil edir, bir çox halda ona öz neqativ münasibətini aydın surətdə biruzə verir, öz əməlindən peşman olur, özünü yeniləşdirməyə can atır.

Tərbiyəvi tədbirlər, tədricən məhkuma öz keçmişinə qarşı mənfi və tənqidi münasibət yaratmaq istiqamətində aparılmalıdır. Məhkum keçmiş əməlləri qarçısında öz günahını hiss etməli, onda əmək fəaliyyətinə və cəmiyyətdə yaşamağa həvəs oyanmalı, cəzanı çəkib qurtardıqdan sonra hansı perspektiv yolla gedəcəyini bilməlidir. Bu baxımdan müəllifin təqdim etdiyi “Cəzaçəkmə müəssisələrində yenidəntərbiyə (İSLAH) işinin sosial və psixoloji əsasları” adlı metodik vəsait xüsusi aktuallığa malikdir.

Metodik vəsait girişdən, beş bölmədən və istifadə edilmiş geniş ədəbiyyat siyahısından ibarətdir.

Metodik vəsaitin I bölməsi “İslah psixologiyasının ümumi məsələləri” adlanır. Burada müəllif tərəfindən məhkum şəxsiyyətinin əsas metodları sadalanır. Qeyd olunur ki, bu metodlar vasitəsilə məhkumun şəxsiyyətini öyrənərkən onun əməyə münasibətini, marağını, kollektivdəki vəziyyətini, istər özünün, istərsə də başqalarının davranışına olan münasibətini, ədəb və nəzakətini, şüurluluğunu, inamını, qorxaqlığını, aktivliyini, özünü idarə edə bilməsini və s. nəzərə almaq lazımdır. Burada islah prosesinin təşkilinin, həmçinin islah prosesini həyata keçirən penitensiar xidmət əməkdaşlarının fəaliyyətinin psixoloji xarakteristikası öz əksini tapmışdır.

Metodik vəsaitin II bölməsi “Məhkum şəxsiyyətinin psixologiyası” adlanır. Müəllif düzgün olaraq məhkum şəxsiyyətinin, eyni zamanda təkrar cinayət törətmiş cinayətkar şəxsiyyətinin psixoloji xarakteristikasını təhlil etmişdir.

Metodik vəsaitin III bölməsi “Müxtəlif sosial qruplarda olan məhkumların psixologiyası” adlanır. Bu bölmədə müəllif yetkinlik yaşına çatmamış məhkumların psixoloji xüsusiyyətlərini, azadlıqdan məhrumetmə növündə cəza çəkən qadınların psixi saglamlığının qorunması məsələlərini araşdırır.

Metodik vəsaitin IV bölməsi “İslah prosesinin sosial-psixoloji məsələləri” adlanır. Bu bölmədə müəllif tərəfindən haqlı olaraq islah müəssisələrində ünsiyyətin psixologiyası, şəxsiyyətlərarası münasibətlər sahəsində problemlər, asosial ünsiyyət formalarının səbəbləri, məhkum qruplarının psixologiyası, məhkum qruplarında konfliktlərin profilaktikası və qarşısının alınmasının sosial-psixoloji mexanizmləri təhlil edilir.

Metodik vəsaitin V bölməsi “Penitenisiar sistemdə sosial-psixoloji xidmət” adlanır. Burada məhkumların yeni şəraitə adaptasiyası və azdlıqdakı həyata readaptasiyalarının sosial və psixoloji məsələləri, penitensiar sistemdə psixoloji xidmətin təşkili məsələləri, həmçinin

məhkumların törətdikləri cinayətkarlığa görə qruplaşması və onlara tətbiq olunan qeyri-cəza tədbirləri şərh edilmişdir.

Ümumiyyətlə, “Cəzaçəkmə müəssisələrində yenidəntərbiyə (İSLAH) işinin sosial və psixoloji əsasları” adlı metodik vəsait penitensiar psixologiya sahəsində nəzəri və praktik cəhətdən faydalı hesab oluna bilər. Metodik vəsait ayrı-ayrı müəssisə və təşkilatlarda, o cümlədən ali təhsil müəssisələrində, idarəetmə strukturlarında, islah-əmək müssisələrində fərdlərin biliklərinin artırılmasına köməklik göstərə bilər. Həmçinin metodik vəsaitdən sosial və hüquq psixologiyası, eləcə də hüquq sahəsində çalışan mütəxəssislər, müəllimlər, tələbələr, doktorantlar və bu sahə ilə maraqlanan digər şəxslər istifadə edə bilər.

**AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri, fəlsəfə üzrə elmlər doktoru, Rusiya Federasiyası Avrasiya İnzibati Elmlər Akademiyasının müxbir üzvü**

**Sakit Hüseynov**

# G İ R İ Ş

***Hər kəs başqalarını öyrənməyi xoşlayır,***
***amma heç kim başqaları tərəfindən***
***öyrənilmək istəmir….***
***F.Laroşfuko***

Ədalət mühakiməsi yalnız təqsirləndirilən şəxslərin tapılması və onlara qarşı cəza tədbirlərinin müəyyən edilməsilə məhdudlaşmır. Ədliyyənin qarşısında duran əsas məqsədlərdən biri də cinayət törətmiş şəxslərin islah olunmasıdır. Ədliyyə sahəsində tərbiyənin xüsusi prinsipləri tətbiq edilir. Tərbiyə obyektinə çevrilmiş şəxslərin xüsusi keyfiyyətlərə malik olması spesifik tərbiyə şəraiti yaratmağı tələb edir. Belə şəxslərin yalnız tərbiyəsi deyil, həm də yenidən tərbiyəsi zəruridir. Çünki onlar mənfi psixi keyfiyyət və xüsusiyyətlərlə yanaşı, bəzən mənəvi davranış prinsiplərinə zidd olan meyllərin daşıyıcısı kimi çıxış edirlər. Cinayətkarın yenidən tərbiyəsinə yönəldilmiş fəaliyyət elə qurulmalıdır ki, onların cəmiyyətdə bir daha cinayət işləri ilə məşğul olmayacaqlarını təmin edə bilsin.
Metodik göstərişin ayrı-ayrı bölmələrində məhkumların psixologiyası, onların bir şəxsiyyət kimi inkişafı, təlim-tərbiyə (*yeniyetmələrdə*), yenidəntərbiyə və özünütərbiyə məsələləri haqqında məlumatlar təqdim olunur.

Cəzaçəkmə müəssisələrində, azadlıqdan məhrum edilmiş insanların həyat və fəaliyyətində daha çox rast gəlinən neqativ psixoloji problemlər, onların profilaktikası və aradan qaldırılması, penitensiar müəssisələrdə psixoloji xidmət işinin təşkili, xarici ölkələrin bu sahədə təcrübəsi məsələlərinə də diqqət ayrılır.

**Metodik göstərişin tərtib** olunmasının əsas məqsədi penitensiar xidmət əməkdaşlarını cəzaçəkmə müəssisələrində psixoloji vasitələrin tətbiqi istiqamətləri ilə tanış etmək, onlarda məhkumların psixoloji xüsusiyyətləri, islahı, residivistlərlə (*təkrar cinayətkarlığın qarşısının alınması məqsədilə)* aparılacaq psixoprofilaktiki işlər haqqında təsəvvür yaratmaq, müvafiq sahədə psixoloji xidmət işinin təşkili ilə bağlı bilik və bacarıqlar aşılamaqdır.

Əsas vəzifələr:

- *Məhkumların psixologiyası, məhkumlar arasında rast gələnən sosial-psixoloji problemlər, onların təzahürləri haqqında lazımi bilik və bacarıqların formalaşdırılması;*

- *Penitensiar xidmət əməkdaşlarının  başlıca islah metodları ilə tanış olması və islah prosesində rast gəlinə biləcək  problemlərin aradan qaldırılması istiqamətində xüsusi bacarıqlara  yiyələnmək ;*
- *Penitensiar xidmət əməkdaşlarında islah prosesində psixoloji təsir metodlarından istifadə bacarığının formalaşdırılması və inkişaf etdirilməsi.*

Gözlənilən nəticələr:

*(tərbiyə işi  ilə məşğul olan əməkdaşlar, psixoloqlar, sosial işçilər və s. )*

- *Məhkumların islahı zamanı qarşıya çıxan sosial, psixoloji və sosial-psixoloji problemlərin yaranma səbəbləri və təzahür formalarının  inkişaf dinamikasını öyrənəcək ;*

- *Məhkumların psixoloji xüsusiyyətləri və davranışlarının  psixoloji mexanizmləri haqqında  məlumat  əldə  edəcək;*

- *Məhkumların islahının əsas psixoloji metodları haqqında bilik və bacarıqlara yiyələnəcəklər.*

*İslah prosesində müzakirə, müşahidə, fərdi söhbət, kollektiv toplantı, treninq  və xarici ölkələrin penitensiar praktikasından  istifadə olunması  məqsədəuyğundur.*

# I BÖLMƏ

## İSLAH PSİXOLOGİYASININ ÜMUMİ MƏSƏLƏLƏRİ

### 1.1 Məhkum şəxsiyyətinin öyrənilməsinin əsas metodları.

Müasir penitensiar psixologiyanın nəzəri və praktiki vəzifələri. Məhkum şəxsiyyətinin öyrənilməsinin əsas metodları: müşahidə (penitensiar müəssisələrdə müşahidənin bütün növlərindən bilavasitə, vasitəli, standartlaşdırılmış, açıq və gizli formalarından istifadə olunur), eksperiment, söhbət, fəaliyyət məhsullarının təhlili, özünüqiymətləndirmə, işarəli sosiometriya və psixodiaqnostik metodlar. O cümlədən xarici ölkələrin penitensiar praktikasında istifadə olunan bir sıra islahedici təsir proqramlarından istifadə məqsədəmüvafiq hesab edilir. Məsələn: V.Qlasserin "Ətraf aləmin reallığı ilə təsir" metodundan, H.Kuey və L.Parsons tərəfindən təklif edilmiş "İslahedici təsir" metodundan, cəzaya etinasız olan residivistlərə münasibətdə Georq Styuruqun "Tibbi modil"indən, Marqarit Uorrenin "Yetkinlik səviyyəsinin şəxsiyyətlərarası təsnifatı"ndan istifadə məqsədəuyğundur. Şəxsiyyətin psixi xassələrini öyrənən digər metodlardan, məsələn; Ayzenkin temperament sorğusundan, Belovanın temperamentin formulu metodikasından, Leonqardın xarakterin aksentuasiya tipinin müəyyənləşdirilməsi metodikasından da istifadə oluna bilər.

Məhkumu öyrənərkən onun əməyə münasibətini, fəhimlilik dərəcəsini, marağını, mütəşəkkilliyini, kollektivdəki vəziyyətini, istər özünün, istərsə də başqalarının davranışına olan münasibətini, sirverməzliyini, ədəb və nəzakətini, təvazökarlığını, şüurluluğunu, inamını, qorxaqlığını, təlqinə məruz qalma dərəcəsini, aktivliyini, inadcıllığını, özünü idarə edə bilməsini və s. nəzərə almaq lazımdır.

Məhkum haqqında məlumatı dolğunlaşdırmaq məqsədi ilə onun qohumları ilə olan məktublaşmalarından (telefon danışıqlarından) və söhbətlərindən də istifadə oluna bilər. Aydın məsələdir ki, əldə edilmiş bütün məlumatlar üzərində dəqiq təhlil və tərkib əməliyyatı nəticəsində məhkumun həyatı, əmək fəaliyyəti və münasibətlərini, ünsiyyətini şərtləndirən şəraitlə onun şəxsiyyətində əmələ gəlmiş psixi keyfiyyət və dəyişmələr arasındakı səbəb və nəticə əlaqələrini müəyyən etmək mümkün olur.

**1.2. İslah prosesinin təşkilinin psixoloji əsasları.**

Cəzanın psixoloji mahiyyəti. Cəzanın funksiyaları. Cəzanın sosial-psixoloji problemləri. İntizam və cəza (tənbeh və həvəsləndirmə). Rejim anlayışı və onun psixoloji mahiyyəti. Rejimin funksiyaları və onların psixoloji əhəmiyyəti. Saxlanılma şəraitini dəyişməklə məhkumlara psixoloji təsir. İslah məqsədilə istifadə olunan metodların psixoloji xarakteristikası. Məhkumlarla tərbiyəvi işlərin təşkilinin psixoloji əsasları. Məhkumlarda islah olunma meylinin formalaşdırılması. Məhkumların təhsilinin psixoloji xüsusiyyətləri.

İnsan psixikası, şüuru və davranışı, əsasən ətraf mühitin təsiri ilə şərtlənir. Həmin təsir birbaşa deyil, dolayı yollarla, xüsusən fəaliyyət prosesində baş verir Lakin hər bir təsir sinir sisteminin xüsusiyyətlərindən, həyat təcrübəsi, sərvət meyilləri və s. kimi amillərdən asılı olaraq, ayrı-ayrı şəxslərdə müxtəlif reaksiyalar doğurur. Buna görə də eyni şərait və mühit insan psixologiyasına müxtəlif cür təsir göstərir və əks fəaliyyət yaradır. Bu hökmü tamamilə məhkumların psixologiyası və davranışına da şamil etmək olar. Məlumdur ki, azadlıqdan məhrumetmə şəraiti məhkumun psixologiyasına müxtəlif cür təsir edir. Müəyyən edilmişdir ki, məhkum psixologiyasını şərtləndirən amillərdən biri də məhz onun azadlıqdan məhrumetməyə və cəzaşəkmə yerlərinə olan münasibətidir.

Cəzaçəkmə müəssisələri iki əsas vəzifəni yerinə yetirir: *cəzanı icra edir və cinayət törətmiş şəxslərin yenidəntərbiyəsini həyata keçirir.*Yenidəntərbiyənin və özünütərbiyənin mahiyyətini şəxsiyyətin şüurlu olaraq özünü dəyişdirməsi təşkil edir. Cəzaçəkmə müəssisələrində həyata keçirilən tətbiyəvi tədbirlər bir sıra spesifik cəhətlərlə xarakterizə olunur;

- *Cəzaçəkmə müəssisələrində tərbiyə işləri xüsusi istiqamətdə aparılır. Müəssisədə ictimaiyyətin nəzərindən yayınmış, cinayət əməli törətmiş şəxslərin yenidəntərbiyəsi ilə məşğul olunur. Belə yenidəntərbiyə işində isə əsas məqsəd köhnə keyfiyyətlər və vərdişlərin dağıdılması, yenilərinin aşılanmasıdır;*

- *Yenidəntərbiyə işləri cəzaçəkmə müəssisələrinin sərt rejim şəraitində aparılır. Belə rejimdə şəxsi azadlıq və tələbatın əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına xüsusi diqqət yetirilir və məcburiyyət elementləri geniş surətdə tətbiq edilir;*

- *Yenidəntərbiyə məhkumlarla inzibati işçilər arasında mövcud olan açıq qeyri-bərabərlik şəraitində aparılır. Məhkumlar məhdud hüquqa malik olub, üzərlərinə düşən vəzifələri yerinə yetirməlidirlər. Cəzaçəkmə müəssisəsinin əməkdaşları isə məhkumların fəaliyyətini təşkil etməkdə geniş hüquqa malikdirlər;*

- *Cəzaçəkmə müəssisələrində yenidəntərbiyə işlərində ictimai təşkilatların və mikrokollektivlərin fəaliyyəti məhdudlaşdırılır;*

- *Cəzaçəkmə müəssisəsindəki məhkumun yenidəntərbiyəsi müəyyən mənfi psixi keyfiyyətlərə malik olan məhkum kollektivində həyata keçirilir. Belə şərait cinayətkarların özünütərbiyəsi prosesini çətinləşdirir, köhnə mənfi keyfiyyət və vərdişlərin tezliklə dəf edilib, yenilərinin yaranmasına mane olur. İnzibati işçilər yenidəntərbiyə prosesində, eyni zamanda məhkumu əhatə edənlərə də təsir göstərməlidir. Məhz buna görə də yenidəntərbiyə zamanı kollektivin təşkilinə və formalaşmasına xüsusi diqqət yetirilməlidir.*

Tərbiyəvi tədbirlər tədricən məhkuma öz keçmişinə qarşı mənfi və tənqidi münasibət yaratmaq istiqamətində aparılmalıdır. Məhkum keçmiş əməlləri qarşısında öz günahını hiss etməli, onda əmək fəaliyyətinə və cəmiyyətdə yaşamağa həvəs oyanmalı, cəzasını çəkib qurtardıqdan sonra hansı perspektivli yolla gedəcəyini bilməlidir.

Cəzanın əsas cəhətlərindən biri də məhkumların tələbatının məhdudlaşdırılmasıdır. Belə hal məhkumları müəyyən əziyyətə düçar edir və onlarda öz davranışlarına qarşı məsuliyyət hissi oyadır. Lakin hər bir məhdudlaşdırılmış təsir düşünülmüş olmalıdır. Sərt və özünü doğrultmamış məhdudiyyət məhkumların mənfi münasibət və əks davranışına səbəb ola bilər. Cəzaçəkmə müəssisələrində məhkumlar tamamilə yeni, onlar üçün adət xaricində olan şəraitə salınırlar. Belə bir vəziyyət isə keçmiş stereotiplərin dağılmasına və mənfi emosiyaların (*həyəcanlı hal, ruhi əzginlik, küskünlük, aqressivlik, autoaqressivlik, qeyri-adekvat hərəkətlər, nümayişkaranə-şantaj xarakterli hərəkətlər və s.)* meydana gəlməsinə səbəb olur. Bu hal məhkumluq dövrünün ilk vaxtlarında özünü daha açıq göstərir. Bütün bunlar isə müxtəlif pozucu halların baş verməsinə səbəb ola bilər. Müəssisə əməkdaşları (*tərbiyə işi ilə məşğul olan hər kəs*) bu cəhətləri nəzərə alaraq, ehtiyatlı və diqqətli olmalı, məhkumlarla münasibətdə səbrlə və ehtiyatla hərəkət etməyi bacarmalıdır. Əməkdaşlar belə hərəkət etməzsə, məhkumların yenidəntərbiyəsi qeyri- mümkün olar.

### 1.3. İslah prosesini həyata keçirən penitensiar xidmət əməkdaşlarının fəaliyyətinin psixoloji xarakteristikası.

İslah müəssisələrində fəaliyyətin strukturu və onun psixoloji təhlili. Cəzaçəkmə müəssisəsi əməkdaşlarının şəxsiyyətinin psixoloji xarakteristikası. İslah prosesini həyata keçirən əməkdaşlar üçün tələb olunan əsas peşəkar keyfiyyət və bacarıqlar (professioqram). İslah müəssisələrində fəaliyyətin mənfi emosional çalarları və stressogen xarakteri. Peşəkar fəaliyyət zamanı mənfi psixoloji durumun aradan qaldırılması və professional deformasiyanın profilaktikası (uzun müddət CÇM-də və Həbsxanada çalışan əməkdaşlara şamil oluna bilər). İslah müəssisələrinin əməkdaşlarının məhkumlarla ünsiyyət və qarşılıqlı münasibətlərinin xüsusiyyətləri. Burada müxtəlif testlərdən də istifadə oluna bilər (məs: "Maraqlar xəritəsi" - peşə meyli ilə bağlı idrak maraqlarının öyrənilməsi, Avtoportret "Mən kiməm?", KTQ, "Hadisələrdəki ardıcıllığın təyin edilməsi" testi, Ravenin proqressiv matrisa şkalası, Kettelin 16 faktorlu şəxsiyyət sorğusu, MMPİ, Etkindin subyektiv nəzarət metodikası, Tomasın konfliktli situasiyada davranış strategiyası testi və s.

Qeyd etmək lazımdır ki, xüsusi xidmət orqanlarına seçilən namizədlərin professional yararlılığını xarakterizə edən 5 faktor fərqləndirilir:

***I faktor- yüksək sosial adaptasiya səviyyəsi:***

Bu faktoru formalaşdıran əsas xüsusiyyətlər- yüksək hüquqi şüur səviyyəsi, vicdanlılıq, doğruçuluq, çalışqanlıq və intizamlılıqdır. Işə məsuliyyətsiz münasibət, alkoqalizmə və narkomaniyaya meyl, intizamsızlıq, mənəviyyatsızlıq kimi mənfi keyfiyyətlər professional yararsızlıqdan xəbər verir.

***II faktor- emosional sabitlik:***

Bu faktor stressə dözümlülük, yüksək özünənəzarət səviyyəsi, frustrasiya yaradan çətin situasiyalarda işgüzarlığın saxlanması, sinir-əsəb sisteminin sağlamlığı ilə xarakterizə olunur. Stressə qarşı dözümsüzlük, emosional gərginlik, aqressivlik, impulsivlik, nevrotik simptomlar, psixopatik xarakter xüsusiyyətləri professional yararsızlığın göstəricisi hesab olunur.

***III faktor- yüksək intellektual inkişaf səviyyəsi:***

Yüksək intellekt, yaxşı dünyağörüşü, yaradıcı təfəkkür, əqli işgüzarlıq, proqnostik qabiliyyət, aktivlik, diqqət və hafizənin itiliyi, inkişaf etmiş təxəyyül və intuisiya bu faktorun əsas xüsusiyyətlərindəndir. Psixi proseslərdə ləngimə, zəif hafizə və s. professional yararsızlığa işarədir.

***IV faktor- kommunikativ qabiliyyət:***

Ünsiyyətin müxtəlif iştirakçıları ilə emosional təmas yaratmaq, insanları dinləməyi bacarmaq, ünsiyyətin verbal və qeyri-verbal vasitələri haqda məlumatlı olmaq, şifahi nitqlə yanaşı yazılı nitqi də inkişaf etdirmək, konfliktli situasiyalarda ünsiyyətin üslubunu dəyişə bilmək və s. Qapalılıq, acıdillik, emosional qeyri-stabillik kommunikativ prosesləri çətinləşdirir və iş prosesində əlavə problemlərin yaranmasına səbəb ola bilir.

***V faktor- təşkilatçılıq qabiliyyəti:***

Təşəbbüskarlıq, cəsarətlilik, qətiyyətlilik, öz əməlinə görə məsuliyyətlilik, qəbul etdiyi qərarın nəticəsini proqnozlaşdıra bilmək, adekvat özünüqiymətləndirmə kimi xüsusiyyətlərlə xarakterizə olunur. Yüksək aqressivlik, passivlik, oyanma ilə ləngimənin müvazinətinin pozulması, aşağı intellekt və yüksək özünü qiymətləndirmə, insanlara etinasız münasibət, şübhələnməyə meyillilik professional yararsızlığın göstəricisi hesab edilir.

Cəzaçəkmə müəssisəsində isə tərbiyəvi və psixoloji iş yenidən tərbiyə olunanın, yəni məhkumların gələcək modelini yaratmaq istiqamətində qurulmalıdır. Yəni müəssisə əməkdaşı fikirləşməlidir ki, məhkum kim olmuşdur, hal-hazırda kimdir və cəzaçəkmə müəssisəsindəki kompleks təsirlər nəticəsində necə şəxsiyyətə çevriləcək.

Yenidəntərbiyə işinin müvəffəqiyyətini şərtləndirən cəhətlərdən biri də hər bir məhkumun psixi xüsusiyyətlərinin dərindən öyrənilməsidir. Cəzaçəkmə müəssisəsinin konstruktiv fəaliyyəti məhz həmin məqsədə xidmət etməlidir. Bu fəaliyyət ilk növbədə, ayrı-ayrı məhkumların, məhkum qruplarının öyrənilməsini təmin edən tədbirlər sisteminin və tərbiyəvi təsirlərin planlaşdırılmasında özünü göstərir.

Plan tərtib olunarkən məhkumların intellektual, emosional, iradi keyfiyyətlərinin, tələbatlarının, vərdişlərinin, dünyagörüşünün, bir sözlə, məhkum şəxsiyyətinin bütün quruluşunun inkişafını təmin edə bilən tədbirlərin qarşılıqlı iştirakı və təsiri nəzərdə tutulmalıdır.

Cəzaçəkmə müəssisəsində məhkumların öyrənilməsi dəstə rəisinin fəaliyyətində xüsusi yer tutur. Yenidəntərbiyə işində müvəffəqiyyət qazanmaq üçün məhkumun yaşadığı və işlədiyi şərait, onun daxil olduğu münasibət sistemi lazımınca öyrənilməlidir. Məhz elə bu yolla şəxsiyyətə bu və ya başqa dərəcədə təsir göstərən amilləri aşkar etmək olar. Nəzərə almaq lazımdır ki, cəzaçəkmə müəssisəsinin şəraiti məhkum şəxsiyyətinin öyrənilməsi üçün əlverişli imkan yaradır, çünki məhkumlar daima dəstə rəisinin nəzarəti altında olurlar. Lakin məhkumun yenidəntərbiyəsi üçün islah müəssisəsində toplanan məlumat kafi deyil. Onlar məhkumun cinayət işi törədənə qədərki həyat yolu haqqında məlumata da malik olmalıdırlar. Bu cəhətdən polis orqanlarından, məhkumun qohumlarından, vaxtilə işlədiyi kollektivdən alınan məlumatların əhəmiyyəti böyükdür.

Məhkumlarla iş aparan, onların yenidəntərbiyəsi ilə məşğul olan şəxs xüsusi və müəyyən zəruri keyfiyyətlərə malik olmalıdır.

Məsələn:

- penitensiar xidmət əməkdaşları saf məfkurəli, aydın məqsədli, möhkəm iradəli şəxs olmalıdır;
- kollektivdə sağlam əhval-ruhiyyəni yaradıb saxlamağı, psixi fəaliyyət oyatmağı, məhkumların psixi vəziyyətini qiymətləndirməyi bacarmalıdır;
- yüksək müşahidə qabiliyyətinə, təhsilə və mədəniyyətə malik olmalıdır. Bir sözlə, penitensiar xidmət əməkdaşının hüquqi, psixoloji və pedaqoji hazırlığı yüksək səviyyədə olmalıdır.
- hər bir əməkdaş yüksək dərəcədə inkişak etmiş kommunikativ (verbal və qeyri-verbal) qabiliyyət və bacarıqlara malik olmalıdır.

Penitensiar xidmət əməkdaşının peşə fəaliyyətinin (profissioqrammasının) tərkib hissələrinin təsnifatı aşağıdakı sxemdə öz əksini tapır:


Sosial fəaliyyət
1. Ümumi keyfiyyətlər:
Vətənpərvərlik, humanizm, düzgünlük, prinsipiallıq.
2. Xüsusi keyfiyyətlər:
Professional iftixar, professional etikanın gözlənməsi.
Rekonstruktiv fəaliyyət
Hafizə, təxəyyül, təfəkkür, ümumi və xüsusi intellekt, intuisiya.
Təşkilati fəaliyyət
1. Mütəşəkkillik, iradə, təkidlilik, özünü səfərbəretmə.
2. Ünsiyyətdə təşkilatçılıq qabiliyyəti.
Səliqəlilik, dəqiqlik, inkişaf etmiş yazılı nitq
Kommunikativ fəaliyyət
Ünsiyyətlilik, emosional dözümlülük, həssaslıq, dinləmə bacarığı, danışma bacarığı.
Axtarış fəaliyyəti
Müşahidəçilik, diqqətin həcmi, davamlılığı, cəmlənməsi, yaxşı bələdləşmə qabiliyyəti, hər şeylə maraqlanmaq.

Unutmaq olmaz ki, məhkumlarda spesifik psixi hallar baş verir. Həmin psixi hallar onların azadlıqdan məhrum olunmaları ilə bağlıdır. Belə hallarda dəstə rəisi ilə məhkum arasında münasibətlərdə də konkret vəziyyət özünü göstərir. Əməkdaşların borcu bu konkret şəraitdə məhkumun emosional vəziyyətini normal hala gətirməkdir. Bu işdə də dəstə rəisi xüsusilə diqqətli, ciddi, daxilən hazırlıqlı və həssas olmalıdır. Dəstə rəisi ilə məhkum arasında yaranan vəziyyət və konflikt digər məhkumların da diqqətini özünə cəlb edir və bu cəhət münasibətlərdə etik normaların gözlənilməsini zəruri edir. Burada qeyd edilən şəxsi keyfiyyətlərə malik olan cəzaçəkmə müəssisəsinin əməkdaşı üzərinə düşən çox böyük sosial məsuliyyətin öhdəsindən bacarıqla gələ bilər.

# II BÖLMƏ

## MƏHKUM ŞƏXSİYYƏTİNİN PSİXOLOGİYASI

### 2.1. Məhkum şəxsiyyətinin psixoloji xarakteristikası.

Cəzanın çəkilməsi şəraitinin məhkumların idrak fəaliyyətinə təsiri *(burada məhkumların idrak prosesləri araşdırılmalıdır)*. Məhkum şəxsiyyətinin ümumi xarakteristikası. Məhkumların davranışının motiv və tələbatları. Məhkumların maraqlarının, tələbatlarının spesifik xüsusiyyətləri. İslah prosesində məhkumların fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması. Məhkumların temperamentinin öyrənilməsi və onların islahı prosesində temperament xüsusiyyətlərinin nəzərə alınması. İradə və onun məhkumlarda inkişaf etdirilməsi. Məhkumlarda iradə pozuntuları və onları yaradan amillər. Emosiyalar, hisslər və onların məhkumlarda təzahürü. Məhkumların emosional aləminə təsirin əsas istiqamətləri. Məhkum şəxsiyyətinə nəzərən norma və patologiya anlayışları. Məhkumlarda davranış pozuntuları.

Şəxsiyyətin təşəkkülü və formalaşması prosesi hüquq və kriminologiya elmləri üçün müəyyən məna kəsb etsə də, əslində, bu məsələ psixologiya və sosialogiyanın aktual problemləridir. Çünki insanın davranış və hərəkətlərinin mexanizmlərini aşkar etmək üçün hər bir insanın beyin fəaliyyəti, yəni, davranış və rəftarın psixofizioloji mexanizmləri də

xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda unutmaq olmaz ki, şəxsiyyətin inkişafı və formalaşması prosesində uğurlu sosiallaşmanın (sosializasiyanın) baş verməsi möhkəm sosial qadağalar və daxili nəzarətin mövcudluğu ilə təmin olunur.

Unutmaq olmaz ki, cinayət hərəkəti ilə bağlı niyyət, düşüncə təfəkkür prosesində yaranır. Belə fikrin formalaşmasına ictimai əxlaqla və hüquqi şüura uyğun gəlməyən anlayış və təsəvvürlər təsir edir. Şəxsiyyətin nə dərəcədə antiictimai görüşlərlə və antisosial mülahizələrlə əhatə olunduğunu onun maraqlarını, tələbatlarını, hərəkət motivlərini kompleks şəkildə təhlil etməklə aydınlaşdırmaq olar.

Hüquqazidd niyyətin yaranmasına insanın malik olduğu sinir sisteminin tipi, temperamenti, xarakteri, eləcə də, intellekt və şüur səviyyəsi də təsir edir.

Psixologiya insanda bir-biri ilə qarşılıqlı münasibət və qırılmaz vəhdətdə təzahür edən müxtəlif növlü və tipli tələbatların olduğunu göstərir. Bir qayda olaraq, məhkumlarda maddi təlabatlar üstünlük təşkil edir. Həmin tələbatların özü də hipertrofik, həddi-hüdudu aşmış, şişirdilmiş xarakter daşıyır. Məhkumun mənəvi tələbatları isə fəaliyyətdən qalmış, sönük olur və onların həyatında mühüm rol oynamır. Məhkumların əksəriyyətində mənəvi tələbatlar təhrifə uğramış, cəmiyyətin əxlaq normalarına əks çıxması ilə xarakterizə olunur. Belə tələbatın ödənməsi isə təhlükə doğurur. Tələbat dərk edildikdən sonra insanı müxtəlif fəaliyyətə sövq edən motivlərə - qüvvəyə çevrilir. Təhrifə uğramış tələbat və onun əsasında yaranmış motivlər məhkumun fəaliyyətini, onun davranışını, onu əhatə edənlərə, tərbiyəçilərə və s. olan münasibətini təyin edir. Məhkum psixologiyasının özünəməxsus cəhətlərindən biri də odur ki, onlar gələcək həyat prespektivini aydın görə bilmirlər. Bu vəziyyət mühit və şəraitin qavranılmasına təsir edir, cəza tədbiri intiqamçı hərəkət təsiri bağışlayır. Məhkumda qəzəbli və kinli hallar doğurur. Bir çox residivistlərdə ifrat intizamsızlığa, impulsiv davranışlara və hətta psixi xəstəliyə (psixopatiyaya) keçən hərəkətlərə də təsadüf olunur. Bu halları aradan qaldırmaq üçün ilk növbədə, hər bir məhkumun fərdi-psixoloji xüsusiyyətlərinə yaxşı bələd olmaq və həmin fərdi xüsusiyyətlərə adekvat olan psixoloji təsir üsullarından istifadə etmək lazımdır.

## 2.2.Təkrar cinayət törətmiş (residivist) cinayətkar şəxsiyyətinin psixoloji aspektləri.

Şəxsiyyətin təşəkkülündə bioloji və sosial amillərin nisbətinin oynadığı rolun təhlili həmin amillərin sosial inkişaf prosesindəki yerinə və mövqeyinə görə nəzərdən keçirilməlidir. Doğrudur insanın təbii imkanları, cinsi xüsusiyyətləri, sinir

sisteminin tipləri anadan olarkən mövcud olur. Lakin həmin anadangəlmə təbii imkanlara, sinir tiplərinə valideynlərin sağlamlıq səviyyəsi, xüsusilə də onların (həm atanın, həm də ananın) alkoqolizmə və ya narkomaniyaya olan aludəçiliyi ciddi mənfi təsir göstərir. Bununla barabər, şəxsiyyətin istiqamətinə, şəxsi keyfiyyətlərinə təsir göstərən bioloji və sosial amillərin qarşılıqlı təsiri də çox mürəkkəb səciyyə daşıyır. Bu mənada haqlı olaraq qeyd edilir ki, insanlar qəhrəman və ya cani doğulmurlar, onlar həyat prosesində belə olurlar. Heç şübhəsiz, burada tərbiyə, təlim, ətraf mühitin təsiri mühüm rol oynayır.

Ancaq bir cəhəti də nəzərdən qaçırmaq olmaz ki, insanın davranışına təsir edən və onu neqativ istiqamətə yönəldən bioloji amillər də mövcuddur.

Məsələn:

- bioloji tələbatların patalogiyası bir çox hallarda seksual pozğunluğun, cinsi cinayətkarlığın;
- əsəb-psixi xəstəliklər sinir sistemində oyanıqlılığı gücləndirir, qıcıqlara qeyri-adekvat reaksiya verilməsinə səbəb olur, nəticədə insanin öz davranışları üzərində sosial nəzarəti çətinləşir və bir sıra hallarda qəflətən baş verən cinayətlərin törənməsinə səbəb olur;
- psixofizioloji gərginliyin yüksək olması konflikt şəraitinin yaranmasına və xuliqanlıq kimi cinayətlərin törədilməsinə səbəb olur.

Əlbəttə, bütün bu bioloji amillər cinayi davranışın baş verməsinə təsir edir. Lakin elə cinayətlər də var ki, cinayi davranışın baş verməsinə insanların zəruri tələbat və ehtiyaclarının ödənilməməsi və onun təmin olunmaması ilə bağlı çətinliklər səbəb olur. Deməli, insanların ehtiyac və tələbatlarının ödənilmə dərəcəsi onların davranışlarına ciddi təsir göstərir. Burada bir sıra uyğunsuzluq və ziddiyyətlər də özünü büruzə verir. Yəni insanların rol davranışında konfliktin yaranması və onun şəxsiyyətdaxili həlli sosial, hüquqi və əxlaqi qadağaların ölçüsündən, eləcə də, onlara riayət etmək dərəcəsindən asılıdır. Bir halda insanların tələbat və ehtiyaclarının ödənilməsi nisbətən normal səviyyədə olur, digər halda isə, lazımı səviyyədə olmur. Maddi ehtiyaclardan əziyyət çəkən bəzi insanlar həmin ehtiyaclarını heç olmazsa minimum həddə ödəmək üçün müxtəlif vasitələrə əl atmaq və qanunazidd davranışlara yol vermək məcburiyyətində qalırlar. Burada hər hansı motivlə olursa-olsun cinayətə yol vermiş şəxs müəyyən psixoloji xüsusiyyətləri ilə fərqlənir və buna görə də istər psixoloji, istərsə də hüquq ədəbiyyatında işlədilən “cinayətkarın şəxsiyyəti”

anlayışı onun bioloji xüsusiyyətlərinə görə deyil, sosial keyfiyyətinə və ya sosial fərd kimi əməlinə görə belə adlanır. Əslində isə "patoloji" və ya "cinayətkar insan"ın ümumi tipi mövcud deyil. Cinayəti törədən şəxsləri "tip"lərə aid edən S.V.Poznışev yazırdı: *"... cinayətkar "tip" yalnız şəxsiyyətin məlum psixi xüsusiyyətlərinin cəmi deyil, həm də onun quruluşu, psixi xüsusiyyətlərinin kombinasiyasıdır. Bu kombinasiya da o şəxsiyyətin cinayətə doğru sürüklənməsinə təkan verir. Bu təkan nəticəsində insan cinayəti törətmək, imkan düşəndə ondan imtina etmək, ya da heç olmasa belə cinayətkar istəyə qarşı çox da güclü müqavimət göstərməmək istəyinə düşür".*

Cinayətkar şəxsiyyətinin hüquqi sosiallaşması mürəkkəb prosesdir. Burada xarici təsirlərlə yanaşı, daxili psixoloji vəziyyətin, istək və meylin olması da zəruridir. Bəzən də şəxsiyyətin strukturunda obyektiv və subyektiv olanın qarşılıqlı təsiri hər kəsdə özünəməxsus şəkildə təzahür edir. Elə buna görə də bəzi şəxslər hüquq normalarına bələd olduqları halda, bu normalara qəsdən məhəl qoymur və hüquqazidd davranışlardan əl çəkmirlər.

Deməli, insanın sərvət meyli, əxlaqi keyfiyyətləri, şəxsiyyətinin istiqamətləri onun hüquqi sosializasiyasına imkan vermir. Burada əsas məsələ bu və ya digər şəxsin cinayət yoluna düşməsində deyil. Əsl məsələ cinayətkar əməlin insanın şəxsiyyətinin strukturunda, xüsusən də təhltəlşüurunda (süurun qaranlığında) özünə yer etməsində və daxili təhriklərlə şərtlənən psixoloji yönümün formalaşmasındadır. İnsan cinayətkar kimi dünyaya gəlmir, yaşadığı şərait, sosial mühit, münasibətlər sferası onu cinayətkara çevirir.

Cinayətkar şəxsiyyətinin hüquqi sosializasiyasını düzgün təşkil etmək üçün ona ümid və inamla yanaşıldığı hiss etdirilməlidir. Tərbiyəvi təsir məqsədilə öz keçmiş əməllərini onlara tez-tez xatırlatmaq düzgün olmazdı. Çünki bu cəhət onun keçmiş həyat tərzində xoşagəlməz anları bir daha nəzərinə çatdırır və onun özünün hüquqi cəhətdən sosiallaşması üçün daxili inamını zəiflədir. Başqa sözlə, cinayətkar şəxsiyyətinin hüquqi sosializasiyası yalnız onun emosiya və iradi sferasında deyil, ən başlıcası onun intellekt və şüur sferasında da ciddi yeniləşmə baş verməsi ilə nəticələnməlidir. Yəni cinayətkar öz keçmiş əməllərinə, münasibətlər sisteminə yenidən baxmalı, öz əməllərindən düzgün nəticə çıxarmağı bacarmalı, yol verdiyi neqativ hərəkətlərin onun həyatına necə fəlakətlər gətirdiyini, bu əməllərin tək onun özünə yox, eyni zamanda, ailəsinə, yaxınlarına da nə qədər ziyan verdiyini özü üçün aydınlaşdırmağı bacarmalıdır. Cəzaya etinasız olan residivistlərdə isə tibbi modeli tətbiq etmək müsbət nəticə verə bilər. Bu modelin mahiyyəti ondan ibarətdir ki,

məhkumlara tibbi, psixiatrik təsir vasitələri ilə (laborator şəraitin olması şərtdir) onlar residivdən əl çəkənə qədər onları resosializasiya etməyi nəzərdə tutur. Aparılmış tədqiqatlar (psixiatr G.Styuruq) göstərir ki, xroniki cinayətkarlar, residivistlər özünə hörmətin olmamasından əziyyət çəkirlər. Onların cəmiyyətdə özlərini təsdiq etmək cəhdləri uğursuz olub. Bununla belə təhltəlşüurda onların cəmiyyətdə öz yerlərini tapmaq istəyi zəif də olsa mühafizə edilir. Buna görə də alimlər belə hesab edirlər ki, bu tip cinayətkarlara onların davranışlarının səhv olduğunu təlqin etmək, onların psixoloji problemlərini həll etməyə çalışmaq, onların reallıqla əlaqələrini bərpa etmək müsbət nəticə verə bilər.

# III BÖLMƏ

## MÜXTƏLİF SOSİAL QRUPLARDAN OLAN MƏHKUMLARIN PSİXOLOGİYASI

### 3.1. Yetkinlik yaşına çatmamış məhkumların psixoloji xüsusiyyətləri.

Məhkumların yaşı və cinsindən irəli gələn psixoloji xüsusiyyətləri. Tərbiyə müəssisəsində saxlanılan yetkinlik yaşına çatmayanların psixoloji xüsusiyyətləri. Yetkinlik yaşına çatmayanların asosial davranışını şərtləndirən amillər. Yetkinlik yaşına çatmayan məhkumlara təsir vasitələrinin tətbiqinin xüsusiyyətləri. Yetkinlik yaşına çatmayanların islahı prosesində və onlarla aparılan psixoprofilaktiki işlərdə qrup işlərinin, treninqlərin keçirilməsi məsələləri.

Çox təhlükəli cinayətkarların əksəriyyəti cinayətə çox erkən yaşlarından (14-18) qoşulmuş şəxslərdir. Bu baxımdan, xüsusən yeniyetmələri cinayətə təhrik edən subyektiv, psixoloji səbəblərin öyrənilməsi və uşaqlar arasında cinayətin profilaktikası xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə xarici ölkə penitensiar xidmətlərində tətbiq olunan islahedici metod və vasitələrdən istifadə olunması məqsədəuyğundur. Yeniyetmələrlə işin qurulması daha çox diqqət tələb edir. Əgər nəzərə alınsa ki, bu dövr yeniyetmə həyatının ən emosional və çılğın dövrüdür, xarakter hələ tam formalaşmır (*erkən yeniyetməlik dövrü*), yaşıdlarından seçilmə həvəsi oyanır (*iddia səviyyəsinin yüksək olması*), təsir altına düşmə, istənilən hərəkətə təhrik edilmə hallarına daha çox rast gəlinir. O zaman qeyri-yetkin yeniyetməlik

dövrünün nə qədər çətin bir keçid mərhələsi olduğu anlaşılır. Bu prosesi daha da çətinləşdirən belə yeniyetmələrin böyük bir qisminin natamam ailələrdən olmaları, onların qayğıdan, nəzarətdən və təhsildən kənarda qalmalarıdır.

Cinayətə meyilli yeniyetmələr davranışlarına görə təqribi 4 tipə bölünür:

1. Qeyri-yetkin tip;
2. Nevrotik- konfliktli tip;
3. Sosiallaşmamış aqresiv tip;
4. Submədəniyyətdə mənimsənilmiş davranış tipi.

Burada hər bir tip öz-özlüyündə yeniyetmənin hüquqazidd davranışını xarakterizə edir və onlara yanaşmanın metod və vasitələrini aydınlaşdırır. Yeniyetmələrin davranışını dəyişmək üçün istifadə edilən əsas metod fərdi və qrup söhbətləri və məsləhətlərdir. Hər axşam (günün sonu) və həftə sonları intensiv qrup terapiyasının keçirilməsi məqsədəuyğundur.

Müxtəlif davranış kateqoriyalarından olan insanlar üçün fərdi və qrup terapiyasının müxtəlif növlərindən istifadə edilir. Məsələn: qeyri-yetkin kateqoriyadan olan yeniyetmələrin öz həmyaşıdları ilə ünsiyyətdə olma ehtiyacı var. Onlarla hər dəfə yeni bir problemə həsr edilmiş konsultasiya-söhbətin keçirilməsi müsbət təsir yarada bilər. Lakin bu, məcburu xarakter daşımamalıdır.

Konfliktli nevrotik kateqoriyadan olan yeniyetmələrlə keçirilən treninqlərdə onların konflikt yaşadığı məsələləri üzə çıxarmaq ücün rollu oyunların təşkil edilməsi və yeniyetmələrin də burada rol ifa etməsi müsbət nəticə verə bilər.

Kifayət qədər sosiallaşmamış aqresiv yeniyetmələrlə aparılan terapiya proqramı aktiv fəaliyyətə əsaslanır. Burada müxtəlif məşğuliyyətlərin və hərəki fəallığı əks etdirən tədbirlərin həyata keçirilməsi vacibdir.

Submədəniyyətdə sosiallaşmış yeniyetmələrin hər biri ilə gündəlik qısa fərdi söhbətlər, konsultasiyalar keçirilməlidir.

Ümumiyyətlə, yeniyetmələrlə aparılan tərbiyəvi islah işlərində daha çox diqqəti fərdi konsultasiyalara yönəltmək lazımdır. Bu tip metodların tətbiqi yeniyetmələrin islahı və yenidəntərbiyəsi işinin təşkilində psixoloqlara, penitensiar xidmət əməkdaşlarına kömək edə bilər.

## 3.2. Azadlıqdan məhrumetmə növündə cəza çəkən qadınların (o cümlədən körpələri ilə birlikdə CM-də cəza çəkən anaların) psixi sağlamlığının qorunması məsələləri

Son illər aparılmış tədqiqatlar göstərir ki, həddi-buluğa çatmamış qızlar tərəfindən törədilən cinayətlər bütün hüquq pozuntularının 2-5%-ni təşkil edir. Lakin aparılan tədqiqatlar göstərir ki, bu göstəricilər əslində "qadın cinayətkarlığı"nın tam kriminaloji xarakteristikasını vermir. Çünki qadınlar bəzən cinayətkar, bəzən cinayətin səbəbkarı, bəzən də qurban rolunda çıxış edirlər.

Qadınların cinayətkarlığının kriminoloji xarakterizəsi, onların həyat tərzinin, fəaliyyətinin, sosial mövqelərinin və rollarının spesifikası ilə bağlıdır. Eyni zamanda bu cinayətkarlıq ümumiyyətlə, cinayətkarlığı və onun dəyişikliklərini əks etdirir, onun tərkib hissəsi kimi çıxış edir.

Qadınların cinayətkarlığında tamah məqsədli və zorakı cinayətlərin, habelə digər cinayətlərin nisbəti kişilərin cinayətkarlığında olan müvafiq nisbətlərdən fərqlənir. Praktiki olaraq bütün zorakı cinayətləri, vəzifə və iqtisadi cinayətlərin bəzi növlərini törətmiş şəxslər arasında qadınların payı kişilərin payından az olub.

Qadın cinayətkarlığının quruluşunda tamah məqsədli cinayətlər, onların arasında isə peşə fəaliyyəti ilə bağlı cinayətlər üstünlük təşkil edir. Eyni zamanda qəsdən bədənə ağır xəsarət yetirən qadın-cinayətkarların sayının artımı ifşa olunmuş qadın qatillərin sayının artımından iki dəfə artıq olmuşdur. Bu cinayətlər əsasən ailə-məişət münasibətlərilə bağlı törədilir və bunlarda əsasən qadın özü qurban olur. Qadın-cinayətkarların qurbanları əksər hallarda onların ərləri, birgə yaşadıqları adamlar, uşaqları və ya yaxın qohumları olur. Motiv kimi isə ailə münaqişəsi, ailədən yaxa qurtarma, bəzi hallarda isə tamah məqsədi kimi çıxış edir. Son 10 ildə isə dələduzluq və oğurluq törətmiş qadınların sayının artma tempi kişilərinkinə nisbətən 2 dəfə çox olmuşdur.

Zorakılıqla bağlı cinayətlər uzun zamanlar qadınlara xas deyildi, yalnız ailə-məişət zəminində törədilirdi. Lakin son zamanlarda belə cinayətləri törədən qadınların sayı artmışdır. Bundan əlavə yeni doğulmuş uşaqlarını öldürən qadınların, mütəşəkkil cinayətkar qrupların tərkibində fəaliyyət göstərən qadınların, hətta, qadın residivistlərin də sayı artmışdır.

Qadın cinayətkarlığının bir sıra spesifik xüsusiyyətləri vardır:

- qadınların sosial vəziyyətləri dəyişsə də törətdikləri cinayətlərin səviyyəsi həmişə kişilərinkindən aşağı olmuşdur;

- qadın cinayətkarlığının dəyişikliklərinin xarakteri çox vaxt kişi cinayətkarlığının dəyişiliklərinin xarakterinə uyğun gəlmir (məs: qadınların zorakılıqla bağlı törətdikləri cinayətlər nisbətən aşağı templə artır);
- qadın cinayətkarlığının quruluşu kişilərin törətdikləri cinayətlərin quruluşunu təkrar etmir və o spesifikdir və məhz qadına xas cinayət növləri ilə müəyyən edilir.

Kriminoloqlar başqa bir xüsusiyyəti qeyd edirlər ki, qadınların cinayətkar fəaliyyəti çox vaxt onların yaxın ətrafından asılı olur. Məsələn: özünə yaxın kişini itirmək "qorxusu" qadını cinayət törətməyə, uşağını öldürməyə vadar edir. Qadının dünyaya gətirdiyi uşağı doğum vaxtı və ya doğumdan sonra öldürməsi sosial-psixoloji səbəblərlə bağlı olur ki, bu problemlərin yaratdığı psixoloji travma cəzaçəkmə müəssisəsində cəza çəkərkən də onların psixo-emosional sferalarında yaranan gərginliyə və şəxsiyyətlərində baş verən ciddi deqeredasiyaya səbəb olur.

Cəza çəkən qadınlar üçün ailə böyük qarşıalma *(qarşıdurma və ya qəbul edilməmə)* amili olur. Cəza çəkdikdən sonra kişilərin çoxunun ailəsi qəbul etdiyi halda, qadın cinayətkarların ailələri dağılır, yeni ailənin qurulması isə az hallarda mümkun olur.

Beləliklə, cəza çəkən qadınların psixi stereotipləri, sosial münasibətləri kişilərinkindən fərqli olaraq daha tez dağılır. Buna görə də qadınların və cəzaçəkmə müəssisəsində böyüyən uşaqların sosial-psixi müdafiəsi üçün qadın cəza çəkmə müəssisəsində yeni islahatlar aparılmalıdır.

# IV BÖLMƏ

# İSLAH PROSESİNİN SOSİAL-PSİXOLOJİ MƏSƏLƏLƏRİ

## 4.1. İslah müəssisələrində ünsiyyətin psixologiyası.

*Məhkum kollektivində şəxsiyyətlərarası münasibətlər sahəsində problemlər. İslah müəssisələrində asosial ünsiyyət formalarının səbəbləri.*

Məhkumlar arasındakı ünsiyyət prosesində müəyyən çətinliklər- kommunikativ maneələr müşahidə olunur. Onlar adətən sosial və psixoloji xarakter daşıyır. Müxtəlif sosial qruplardan olan adamlar arasında sosial, siyasi, dini və peşə fərqləri kəskin şəkildə özünü göstərdikdə, onlar situasiyanı eyni şəkildə başa düşmür, hadisələrə müxtəlif baxımdan yanaşırlar. Bu da şəxsiyyətlərarası konfliktlərin yaranmasına səbəb olur. Ünsiyyət prosesində psixoloji xarakterli kommunikativ maneələr də mühüm təsir göstərir: belə çətinliklər ya müsahiblərin müəyyən fərdi psixoloji xüsusiyyətlərə malik olması, ya da onların arasında xüsusi növlü psixoloji münasibətlərin-bir-birinə qarşı qərəz, ədavət, düşmənçilik, inamsızlıq, intiqamçılıq və s. əmələ gəlməsi nəticəsində meydana çıxır.
Müasir dövrdə ünsiyyətin təsirli vasitəsi kimi sosial-psixoloji treninqdən (söhbətdən) istifadə olunur. Sosial-psixoloji treninqin köməyi ilə bir tərəfdən ünsiyyət sahəsində çətinliklərlə rastlaşmış adamlarda kommunikativ vərdişlər formalaşdırır, digər tərəfdən isə problemli insan qrupları ilə işləyən peşə sahiblərində kommunikativ vərdişlər yaradır.

## 4.2. Məhkum qruplarının psixologiyası

*Məhkum qrupları haqqında anlayış. Məhkum qruplarının yaranması və formalaşması prosesi. Qrup fikri və onun formalaşması mexanizmləri. Qrup daxilində məhkumların qarşılıqlı münasibətlərinin xüsusiyyətləri. Məhkumların kiçik qrupları. Məhkumların kiçik qruplarında baş verən sosial-psixoloji proseslər və onların penitensiar sistem əməkdaşları tərəfindən nizamlanması. Kiçik qruplarda liderlik. Məhkum qruplarında konfliktlər və onların həll olunmasının psixoloji əsasları. Penitensiar sistemdə konfliktologiyanın əsasları. Konfliktlərin növləri. Məhkum qruplarında konfliktlərin strukturu və səbəbləri. Məhkumlar arasında konfliktlərin profilaktikası və qarşısının alınmasının sosial-psixoloji mexanizmləri.*

Məhkumların yenidən tərbiyə olunması və islahı prosesində kollektiv də çox böyük rol oynayır. Lakin məhbus kollektivində çox mürəkkəb ziddiyyətli münasibətlər hökm sürür. Fərdiyyətçilik mahiyyəti daşıyan psixi xüsusiyyətlər (eqoizm) şəxsiyyətin digər mənfi keyfiyyət və cəhətləri ilə birgə çıxış edərək məhbusların öz arasında və onlarla əməkdaşlar arasında qarşılıqlı münasibətlərdə ziddiyyət doğurur. Ayrı-ayrı cinayətkarlar, xüsusən residivistlər digər məhbuslar üzərində hökmranlığa can atır və öz məqsədlərinə nail olmaq üçün konfilikogen

vəziyyət yaratmaqdan belə çəkinmirlər. Məhkum qruplarında ixtilaf və münaqişələrin tamamilə həll olunması çox mürəkkəb məsələdir. Lakin penitensiar xidmət əməkdaşları unutmamalıdırlar ki, məhkum kollektivinin ictimai rəyi hər bir məhkuma təsir edə bilən böyük qüvvədir. Məhs buna görə də yaranmış münaqişə və ixtilafları həll edərkən kolletivin rəyini (*forma və yanaşma müxtəlifliyini gəzlənmək şərti ilə*) nəzərə almaq lazımdır. Məhkum kollektivlərində qrup liderliyinə isə daha həssas yanaşılmalıdır.

# V BÖLMƏ

## PENİTENSİAR SİSTEMDƏ SOSİAL VƏ PSİXOLOJİ XİDMƏT

### 5.1.Məhkumların yeni şəraitə adaptasiyası və azadlıqdakı həyata readaptasiyalarının sosial və psixoloji məsələləri (sosial terapiya- azadlığa hazırlıq).

Sosial və psixoloji hazırlıq anlayışı. Yeni şəraitdəki həyata məhkumların psixoloji hazırlanmasının mahiyyəti və əhəmiyyəti. Məhkumların psixoloji hazırlığının növləri. Məhkumların sosial və sosial-psixoloji adaptasiyası anlayışı. Adaptasiyanın fizioloji, sosial və psixoloji mexanizmləri. Azadlıqdakı həyata sosial readaptasiya anlayışı. Məhkumların azadlıqdakı həyata adaptasiya və readaptasiya prosesinin idarə olunması problemləri. Hüquqazidd davranış problemlərinin tədqiqi sahəsində sosioloqların və psixoloqların böyük imkanlara malik olduğu məlumdur. Bu baxımdan həbs edilmiş şəxsin və ya məhkumun sosial-psixoloji xarakteristikası, həbsdən azad olmuş şəxsin readaptasiyası kimi sosial-psixoloji problemlər diqqəti daha çox cəlb edir və hüquq sahəsində psixoloji xidmətin təşkili bu problemlərin həllinə yönəldilməlidir.

### 5.2. Penitensiar sistemdə psixoloji xidmətin təşkili məsələləri.

Penitensiar psixoloqun etikası. Penitensiar müəssisədə psixoloqun fəaliyyətinin əsas istiqamətləri: məhkumun psixoloji xarakteristikasının hazırlanması (*karantinə qəbul olunandan başlanması şərti ilə*) və psixi dəyişikliklərin dinamikasının qeydə alınması; işarəli sosiometriya; stiqmatizasiyanın neqativ istiqamətləri; psixodiaqnostik; psixokorreksiya; tərbiyəvi-

maarifləndirici işin təşkili. İslah müəssisələrində suisidal vəziyyətlərin aşkarlanması və onların profilaktikası məsələləri.

Məhkumların islahı üçün əsas məqsəd və istifadə oluna biləcək metodlar:

- *Məhkumların şəxsiyyət xüsusiyyətlərinin psixoloji diaqnostikası;*
- *Sosializasiyanın hüquqi, resosializasiyanın və özünüidarəetmənin psixi deffektlərinin aşkarlanması;*
- *"İndividual şəxsiyyət"in psixo-pedaqoji korreksiyasının uzunmüddətli proqramının hazırlanması;*
- *Aksentuasiyaların, psixopatiyaların aradan qaldırılmasında relaksasiya və düzgün seçilmiş psixoterapiyanın həyata keçirilməsi;*
- *Məhkumun cəzaçəkmə rejimində yeni həyat prinsiplərinə yiyələnməsi və bu rejimin tam formada humanizmləşməsi;*
- *Pozitiv sosial mühitin reallaşması və məhbus maraqlarının üst-üstə düşməsi, cəza metodunun dəyişdirilməsi.*

İslah metodları və proqramları

- *CM-də kriminal qruplaşmaları vaxtında tapıb dağıtmaq;*
- *Düzgün kollektivlər formalaşdırmaq;*
- *Əməyə hörmət və əmək şəraitinin təşkili;*
- *CM-də kitabxanalara müraciət etmək (kitab və gündəlik informasiya vasitəsi olan qəzet oxumağa vərdiş yaratmaq);*
- *Yaxınları ilə tez-tez görüşlər, telefon əlaqələri yaratmalarına şərait yaratmaq (gələcəyə arzular və planlar qurmaları məqsədilə);*
- *Maraqlara əsasən dərnəklər yaratmaq;*

- *İndividual psixoloji konsultasiyalar, psixoterapiyalar (rasional, suggestiv, psixoanaliz və s.);*
- *Qrup terapiyaları və müxtəlif mövzularda söhbətlər (milli iftixar, vətənpərvərlik, dini və s. Maraq dairəsinə görə dəyişdirilməsi şərti ilə).*

<u>Məhbusların azadlıqdakı həyata hazırlanması, bunun üçün lazım olan psixoloji proqram və metodlar</u>

Məhkumların azadlıqdakı həyata hazırlanması ərəfəsində psixokorreksiya proqramlarından istifadə edilə bilər. Bu cür sosial-psixoloji treninqlərin əsas məqsədi əvvəlcədən müəyyənləşdirilməlidir:

- *Məhkumların özü haqda təsəvvürlərini inkişaf və korreksiya etmək;*
- *Adekvat özünüqiymətləndirmə və özünə əminliyin inkişaf etdirilməsi;*
- *Sərvət dəyərlərinin korreksiyası;*
- *Çətin həyat situasiyalarında emosional sabitliyin inkişaf etdirilməsi;*
- *Məhkumlara konfliktli situasiyanı həll etmək qabiliyyətini aşılamaq;*
- *Məhkumların həyat planını aydınlaşdırmaq və formalaşdırmaq;*
- *Bu tip treninqlər ustanovka və provakasiya xarakterli ola bilər.*

<u>Qrup diskussiyalari – bu metod məhkumlara öz probleminə müxtəlif tərəfdən yanaşmağa imkan verir. Qrup diskusiyalarının 3 növü fərqləndirilir:</u>

- *Tematik – bütün məhkumlar üçün əhəmiyyətli mövzu seçilir, müzakirə edilir;*
- *Bioqrafik – qrup konkret məhkumun həyat yolunu təhlil edir;*
- *Şəxsiyyətlərarası diskussiya – qrup üzvləri arasında qarşılıqlı təsir təhlil edilir (bəzən belə şəraitdə məzmunlu-rollu oyunların keçirilməsi də əhəmiyyətlidir;* Məs: “Azadlığa çıxdıqdan sonra evdə ilk gün”, “Mən və ailəm”, “Konfliktləri necə aradan qaldırmalı” və s.) Bu cür rollu oyunlar məhkumların rol davranışlarını təkmilləşdirmək, başqalarının davranış motivlərini daha yaxşı dərk etmək imkanı verir.

➢ *Emosional, koqnitiv, davranış səviyyələrində kömək göstərilir (geştalt, psixoanaliz, koqnitiv terapiyalar);* Məs: “Soğanağın təmizlənməsi” metodu ilə məhkumlar nevrozlardan, psixoloji, emosional problemlərdən tədricən azad olur. Psixoterapevt verilən sualların və alınan cavabların köməyi ilə “fiqurlar” şəklində çıxış edən problemləri tədricən "fona" yığışdırır. Terapiyanın son məqsədi, məhkumun öz psixoloji problemlərinin öhdəsindən gəlməyə sərbəst qabiliyyət əldə etməsidir. “3 stul texnikası”. Məhkuma boş stullardan birinə oturmaq təklif olunur. Boş stullardan birində problem yaşanan insanlardan birini təsəvvür etmək təklif olunur. Psixoterapevtin köməyi ilə məhkumun emosiyaları, hissləri aşkar olunub düzgün yola yönləndirilir.

Penitensiar sistemdə çalışan əməkdaşlara yönəlik psixoloji xidmət işinin təşkili və əsas fəaliyyət istiqamətlərini də müəyyənləşdirmək vacibdir.

## 5.3. Məhkumların törətdikləri cinayətkarlığa görə qruplaşdırlması və onlara tətbiq olunan qeyri-cəza tədbirləri.

Penitensiar sistemdə çalışan əməkdaşlara yönəlik psixoloji xidmət işinin təşkili və əsas fəaliyyət istiqamətlərini də müəyyənləşdirmək vacibdir.

Məhkumların islahı prosesində yararlı ola biləcək, ayrı-ayrı cinayətlərin növlərinə, onların özləri haqda təsəvvürlərinə, ustanovkalarına və digər sosial-psixoloji xarakteristikalarına əsaslanan, Cibbons tərəfindən təklif edilmiş təsnifatlardan da islah prosesində geniş istifadə oluna bilər (***Cədvəl 1,2)***

***Cədvəl 1***

### Cinayətkar tipinin xarakteristikası

| *Tip* | *Cinayətkar davranış modeli* | *Özünüqiymətləndirmə və ustanovka* |
|---|---|---|
| Mülkiyyət əleyhinə cinayət törətmiş yarıprofesional cinayətkar<br><br>(antisosial tip) | Oğurluq, qarət və onunla bağlı cinayətlər; dəfələrlə və elə də çox mənfəət gətirməyən cinayətlərin törədilməsi | Özünü cinayətkar kimi qəbul etsə də, hesab edir ki, cəmiyyətin qurbanıdır. Polisə və islah müəssisəsindəki personala ədavətli münasibət bəsləyir. |

| | | |
|---|---|---|
| Avtomobil oğrusu<br><br>(antisosial tip) | Dəfələrlə tamahkarlıq motivi ilə deyil, sadəcə əyləncə xarakterli avtomobil oğurluğu etmişdir. | Özünü cinayətkar kimi qəbul edir. Bir qayda olaraq özünü xuliqan hesab edir və düşünür ki, digərləri də onu belə qiymətləndirir. |
| Müxtəlif qiymətli kağızların saxtalaşdırılması ilə məşğul olan cinayətkar<br><br>(prososial tip) | Saxtalaşdırmanı çox səriştəsiz, qeyri professional edir. | Özünü cinayətkar yox, şəxsi problemləri olan insan hesab edir. |
| İsrafçı<br><br>(prososial tip) | Etibardan və vəzifədən sui-istifadə edərək şəxsi mülkiyyəti qeyri-qanuni mənimsəmə | Əsl cinayətkardan fərqli olaraq özünü cinayətkar hesab etmir, öz əməllərini də əsl cinayət hesab etmir. |
| Şəxsiyyət əleyhinə cinayət törətmiş cinayətkar<br><br>(prososial tip) | Situasiyanın təsiri altında zorakı cinayət törədir (ağır qətl, hücum və s.) | Özünü cinayətkar kimi qəbul etmir. Lakin cəzaya layiq olduğunu düşünür. Onda antisosial ustanovka müşahidə olunur. |
| Hücum edən psixopat<br><br>(asosial tip) | Əlverişsiz situasiyada zor tətbiqi ilə xarakterizə olunan şəxsiyyət və mülkiyyət əleyhinə cinayətlər törədir. | Özünü cinayətkar kimi qəbul edir. Lakin hesab edir ki, xəyanətin, satqınlığın qurbanı olub. Onun fikrincə insanlara etibar etmək olmaz. |
| Cinsi xarakterli zorakı cinayətlər törədən cinayətkarlar<br><br>(prososial tip) | Qadınlara hücum | Özünü cinayətkar kimi qiymətləndirmir. |
| Narkoman və heroinist<br><br>(antisosial tip) | Geroin və s. narkotik maddələrin qəbulu; narkotik almaq üçün vəsait əldə etmək məqsədi ilə mülkiyyət əleyhinə cinayət törədir. | Özünü cinayətkar kimi qəbul edir. Lakin hesab edir ki, narkomanı cinayətkar adlandırmaq ədalətsizlikdir. Onun fikrincə narkotikdən istifadə ziyansız vərdişdir. |

*cədvəl 2*

# Cinayətkar tiplər və onlara qeyri-cəza tədbirləri

| *Tip* | *Əsas təsir proqramı* | *Əlavə proqram* | *Məqsəd* | *Period* | *Tezlik* |
|---|---|---|---|---|---|
| Mülkiyyət əleyhinə cinayət törətmiş yarıprofessional cinayətkar<br>(antisosial tip) | Psixoloqun başçılığı altında antisosial cinayətkarlardan ibarət qrupda qrup terapiyası | Təlim və təhsil | Polisə, cinayətkarlığa və cəmiyyətə münasibəti dəyişmək, prososial ustanovka inkişaf etdirmək | Həbsin son bir neçə ayı, sınaq müddətində və şərti məhkumluq zamanı qrup terapiyası daha intensiv aparılır | Azadlığa buraxılma ərəfəsində həftədə bir neçə dəfə |
| Avtomobil oğrusu<br>(antisosial tip) | Avtomabil oğurluğu ilə məşğul olmayan cinayətkarlardan ibarət qrupda qrup terapiyası | İdmanla aktiv məşğul olmaq | Xuliqanlığın tövsiyə edilməyən dasvranış olduğuna inandırmaq. Cinayətkarda özü haqda güclü və cəsur bir şəxs olmasına inam yaratmaq. Bu xüsusiyyətlərin cəmiyyətdə tövsiyə edilən tərzdə nümayiş etdirilməsini rəğbətləndirmək. | Yarıprofessional cinayətkarlarla eynidir | Azadlığa buraxılma ərəfəsində həftədə bir neçə dəfə |
| Müxtəlif qiymətli kağızların saxtalaşdırılması ilə məşğul olan cinayətkar<br>(prososial tip) | Fərdi terapiya və ya eyni tipli cinayətkarlarla birlikdə qrup terapiyası | "Anonim cinayətlər" cəmiyyətində iştirak | Cinayətkarın öz cinayət əməlinə haqq qazandırmaq fikirlərini təkzib etmək, alkoqolizmi müalicə etmək davranışında müstəqillik tərbiyə etmək, problemin cəmiyyətdə tövsiyə edilən formada həlli yollarınını tapma | İslah müəssisəsində cəza çəkmə müddətində intensiv təsir | Həftədə bir neçə dəfə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | bacarığını işləmək. | | |
| İsrafçı<br><br>(prososial tip) | İntensiv təsir tələb etmir, vaxtaşırı psixoloqun köməyi tələb edilir. Həbsxanada israfçıları daha kriminal məhkumlardan ayırmaq lazımdır | Həbsxanada dəftərxana, təsərrüfat və s. bu kimi işləri onlara tapşırmaq | Cinayətkarda özü haqda prososial təsəvvürləri və prososial ustanovkanı mühafizə etmək | Azadlığa şərti buraxıldıqdan sonra sosial-iqtisadi statusa uyğunlaşmağa kömək etmək lazımdır | Həftədə bir dəfə |
| Şəxsiyyət əleyhinə cinayət törətmiş cinayətkar<br><br>(prososial tip) | İsrafçılar üçün nəzərdə tutulmuş proqramla eynidir | İslah müəssisələrində müəyyən işləri tapşırmaq | İsrafçılar üçün nəzərdə tutulmuş məqsədlə eynidir | Azadlığa çıxdıqdan sonra intensiv təsir<br><br>(yaxınları və ya ailəsi vasitəsilə) | Azadlığa çıxdıqdan sonra intensiv təsir (yaxınları və ya ailəsi vasitəsilə) |
| Hücum edən psixopat<br><br>(asosial tip) | Qrup terapiyasının ayrı-ayrı formaları və intensiv psixiatrik məsləhətlər | Xüsusi tövsiyələr yoxdur | Şəxsiyyətin normal strukturunun inkişaf etdirilməsi, insanlarla bağlılıq hissi və sosial rolları qəbul edib onlara yiyələnmək qabiliyyətini formalaşdırmağı da daxil edən kifayət qədər sosiallaşmamış fərdin sosializasiyası | Bütün həbs müddətində və şərti azadlığa buraxıldıqdan sonra sınaq müddəti dövründə intensiv müalicə | Həftədə bir dəfə |

| | | | | | |
|---|---|---|---|---|---|
| Cinsi xarakterli zorakı cinayətlər törədən cinayətkarlar<br>(prososial tip) | Klinik psixoloq və psixiatr tərəfindən terapiyanın keçirilməsi | Xüsusi tövsiyələr yoxdur | Patoloji meyli dəyişmək | Bütün həbs müddətində və azadlığa çıxdıqdan sonrakı dövründə intensiv müalicə | Həftədə bir neçə dəfə |
| Narkoman və heroinist<br>(antisosial tip) | Şəxsi problemlərin həlli üçün fərdi terapiya və qrup davranış normalarından istifadə və cinayətkar əməllərə münasibətin modifikasiyası üçün qrup terapiyası | Professiaonal təlim | Narkotikdən istifadəyə və narkomaniyadan müalicəyə antisosial ustanovkanın modifikasiyası, ciddi şəxsi problemlərdən azad etmək | Fərdi terapiya . Həbsxanadakı ilk periodda narkotikdən yadırğama, sonrakı mərhələdə və şərti azadlığa çıxma zamanı-sınaq müddətində qrup terapiyası | Həftədə bir dəfə |

Yuxarıda qeyd edilən proqramlarla yanaşı azadlıqdan məhrum edilmiş insanlarla İ.Rəhimov tərəfindən təklif edilmiş “fərdi islahedici təsir” proqramlarının tətbiqi olduqca əhəmiyyətlidir:

**I. Islahedici təsirin məqsədinin aydınlaşdırılması;**

1. Son məqsəd- məhkumun islahı. Yəni məhkumda neqativ, antisosial, sosial cəhətdən ziyanlı keyfiyyətlərin dağıdılması, xeyirli keyfiyyətlərin formalaşdırılması.
2. Yaxın məqsəd- sosial baxımdan ziyanlı keyfiyyətlərin müəyyənləşdirilməsi:
   a) siyasi qeyri-yetkinlik;
   b) zorakılığa meyillilik;
   c) tamahkarliq;

d) təhlükəsizlik qaydalarına riayət edilməsinə diqqətsizlik və s.

**II. İlkin informasiyanın işlənməsi və tənbehedici təsirin obyekti kimi məhkumun şəxsiyyətinin sosial-psixoloji xüsusiyyətlərinin müəyyən edilməsi;**

a) təhsili və təhsilə münasibəti;

b) ixtisası;

c) məhkumluğa qədərki fəaliyyəti və davranışı, əməyə münasibəti;

d) ailə vəziyyəti; ailə üzvləri ilə münasibəti;

e) son törətdiyi cinayətin xatakteri və cəmiyyətə münasibəti;

f) sağlamlıq vəziyyəti; (o cümlədən alkoqalizm və narkomaniya)

g) m ənəvi-psixoloji keyfiyyətlərinin müəyyənləşdirilməsi.

**III. Sosial-psixoloji xüsusiyyətlərdən asılı olaraq islahedici metod və üsulların seçilməsi;**

a) əməyə cəlb edilməsi;

b) ümumi orta və peşə təhsilinə cəlb edilməsi;

c) ictimai işə cəlb edilməsi;

d) məhkuma tərbiyəvi təsir etmək və əhəmiyyətli, lazımlı informasiyanın alınması üçün fərdi söhbət metodunun tətbiqi;

**IV. Islahedici təsirin nəticəsində əldə edilən informasiyanın işlənilməsi;**

a) məhkumun əmək fəaliyyətinin motivləri (könüllü yoxsa məcburi);

b) istehsal fəaliyyətində aktivlik, təşəbbüskarlıq dərəcəsi;

c) məhkumun rejimin əsas tələblərinə görə davranışının müşahidə edilməsi.

d) Insanlara münasibətinin xüsusiyyətlərini aydınlaşdırmaq;

e) Cəzaçəkmə müəssisəsində yaranan stereotipləri və gələcəklə bağlı həyat planları və s.

**V. Əldə edilmiş informasiyaların işlənməsi nəticəsində tətbiq edilən metod və vasitələrin dəyişdirilməsi (ehtiyac yaranarsa);**

VI. **Fərdi səviyyədə islahedici təsirin nəticələrinin müəyyənləşdirilməsi;**

**a)** məhkumun şəxsiyyətini tərbiyəvi təsirə qədər və cəzasını çəkdikdən sonrakı mərhələdə müqayisə etmək (bu zaman ie=Ş2/Ş1formulundan istifadə etməklə Ş2 ilə Ş1 arasındakı fərqi müəyyənləşdirmək).

Son illərdə həm də böyük qruplarda (15 və daha cox məhkumun iştirakı ilə) keçirilən yenidəntərbiyə metodlarından da geniş istifadə olunur.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsi. Bakı 2000
2. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikası Cinayət Prosesi. Qanun 2002
3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin xidməti istifadə üçün insan hüquqları üzrə sənədlər toplusu. Bakı 2001
4. İnsan hüquqları beynəlxalq müqavilələr toplusu. Bakı: Azərbaycan 1998
5. İnsan Hüquqları: Beynəlxalq Konvensiyalar. Bakı: Azərnəşr 1999
6. Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı 2014
7. Bayramov B.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı 2012
8. Bayramov B.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı 2006
9. Bayramov B.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı 2003
10. Səməndərov F.Y. Kriminologiya. Bakı 2003
11. Əliyev B.H. Məhkumların islahı və sosial-psixoloji reabilitasiyası problemləri.

Konfrans tezisləri Bakı 1999

12. Əliyev B.H. Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri. Bakı 1996

**13.** Алиев Б.Г., Мамедова С.И. Социально-психологические проблемы личности несовершеннолетних правонарушителей. Баку, БГУ 1996

**14.** Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı 1981

**15.** E.İ.Şəfiyeva Klinik psixologiya. Bakı 2002

**16.** Yuvenal Ədliyyə “ Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayət işləri üzrə ədalət mühakiməsi icraatı” dərs vəsaiti. Baklı 2006

**17.** Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında. Azərbaycan Respublikası Qanunu. Qanunçuluq jurnalı № 10, 2005

**18.** Azərbaycanda uşaqlar. Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, 2005

**19.** Шафиева Э.И. Эмоцианальный стресс в условиях нормы и потологии человека. Д., Медицина, 1976

20. E.Məmişov Yetkinlik yaçına çatmayanların cinayət mühakiməsi. Bakı 2002

21. Mühakimə və insan haqları. Bakı: ATƏT, 2005

22. Алекперов Х.Д., Расулов Р.И. Статистика преступности в Азербайджанской ССР. Баку 1990

23. Сеидов С.И. Социальная психология творчества. Азерб. Центр перевода.

Баку 1994

24. Ушатиков А.И. Казак Б.Б. Пенитенциарная психология. Рязань, 2003

25. Серов В.И. Технология психологической коррекции несвободной личности. Рязан 2005

26. Осятыньски В. О преступлениях и наказаниях. Варшава 2003

27. Блэкборн Р. Психология криминального поведения. Киев 2004

28. Дебольский М.Г. Современное состояние психологической службы и концентуальные основы ее функционирования. Москва 2001

29. Зубков А.И., Калинин Ю.И., Сысоев В.Д. Пенитенциарные учреждения в системе Министерства юстиции России. Москва 1998

30. Сухов А.Н. Социально- психологическая подготовка-практиков для работы в пенитенциарных учреждениях. Д.,1996

31. Поздняков В.М. Психология в пенитенциарной практике западных стран в XX столетии.   Москва 2000

32.Столяренко А.М. Психология и практика. //Психологический журнал 1985

33. Бартол Курт. Психология криминального поведения. Учеб. пос., 2004

34. Волков В.Н.  Юридическая психология. Учебник. Москва 2002

35. Лившиц Е. Социальные корни безпризорности.  Москва

36.  Анцупов А.Я. Социально-психологические проблемы предупреждения и разрешения межличностных конфликтов во взаимоотношениях офицеров. М. ГАВС, 1992

37. Асмолов А.Г. Психология личности. Москва 1990

38. Выготский Л.С . Исторический смысл  психологического кризиса. Собр.соч.в.6т.1982

39. Немов Р.С. Общие основы психологии. Москва 1994

40. Никифоров В.С. Самоконтроль человека. Л.ЛГУ, 1989

41. Игошев К.Е. Типология личности преступника и мотивация преступного поведения. Учеб.пос.- Горький 1974

42. Фредерик К. Права человека и ты.   Варшава 1997

43. Фортунатов Г.А. Страх и его преодоление. Москва: ВПА, 1942

44. Кьеркегор С. Страх и трепет. Моска 1993.

45. Мелетинский Е. М. Поэтика мифа. 2-е изд. Москва 1995.

46.Мэй Р. Искусство психологического консультирования. М.: Независимая фирма «Класс», 1994.

47. Feist J., Feist G., (1998). Theories of Personality, McGraw-Hill.

48. May R., (1958 a). Contributions of existencial psychotherapy. In R. May, E. Angel, & H. F. Ellenberger (Ed.) Existence: A New Dimension in Psychiatry and Psychology. New York: Basic Books.

49. May R., (1969 a). The emergence of existencial psychology. In R. May (Ed.) Existencial psychology (2nd ed.) Hew York: Random House.

50. May R., (1981). Freedome and destiny. New York: Norton. (Tale və azadlıq)

# M Ü N D Ə R İ C A T

Ön söz ........................................................................................................ 5

GİRİŞ ……………………………………………………………………………8.

I BÖLMƏ

İSLAH PSİXOLOGİYASININ ÜMUMİ MƏSƏLƏLƏRİ..............................................................................10

1.1.Məhkum şəxsiyyətinin öyrənilməsinin əsas metodları...................................................................................10

1.2. İslah prosesinin təşkilinin psixoloji əsasları…………………………………………………………11…

1.3. İslah prosesini həyata keçirən penitensiar xidmət əməkdaşlarının fəaliyyətinin psixoloji xarakteristikası.........................................................................................................................................................13...

II BÖLMƏ

MƏHKUM ŞƏXSİYYƏTİNİN PSİXOLOGİYASI...........................................................................................17....

2.1. Məhkum şəxsiyyətinin psixoloji xarakteristikası.............................................................................................17..

2.2.Təkrar cinayət törətmiş (residivist) cinayətkar şəxsiyyətinin psixoloji aspektləri...........................................18

III BÖLMƏ

MÜXTƏLİF SOSİAL QRUPLARDAN OLAN MƏHKUMLARIN PSİXOLOGİYASI……………………………………………………………………………………21……

3.1. Yetkinlik yaşına çatmamış məhkumların psixoloji xüsusiyyətləri.................................................................21...

3.2. Azadlıqdan məhrumetmə növündə cəza çəkən qadınların (o cümlədən körpələri ilə birlikdə CM-də cəza çəkən anaların) psixi sağlamlığının qorunması məsələləri....................................................22..

IV BÖLMƏ

İSLAH PROSESİNİN SOSİAL-PSİXOLOJİ MƏSƏLƏLƏRİ.............................................................................24.....

4.1. İslah müəssisələrində ünsiyyətin psixologiyası.................................................................................................24........

4.2. Məhkum qruplarının psixologiyası.............................................................................................................25......

V BÖLMƏ

PENİTENSİAR SİSTEMDƏ SOSİAL VƏ PSİXOLOJİ XİDMƏT....................................................................26........

5.1.Məhkumların yeni şəraitə adaptasiyası və azadlıqdakı həyata readaptasiyalarının sosial və psixoloji məsələləri (sosial terapiya- azadlığa hazırlıq)............................................................................................................. 26

5.2. Penitensiar sistemdə psixoloji xidmətin təşkili məsələləri...........................................................................26........

5.3. Məhkumların törətdikləri cinayətkarlığa görə qruplaşdırlması və onlara tətbiq olunan qeyri-cəza tədbirləri...........................................................................................................29........

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI......................................................................................36........